**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Fətəliyev Məmmədsər Akif oğlunun 26 dekabr 2009-cu il tarixli 138 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Astara rayonu, Siyaku kənd sakini Fətəliyev Məmmədsər Akif oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, Siyaku bələdiyyəsinə seçkilər zamanı məntəqə seçki komissiyası tərəfindən tərtib edilən səsvermə protokolunun 3-cü nüsxəsinin məlumat lövhəsindən asılmamasını bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürərək, vətəndaşın müraciəti qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz surətdə araşdırmışdır.

Araşdırma nəticəsində müraciətin qanuni olduğu müəyyən edildiyindən, müraciət təmin edilməli, müvafiq protokolun 3-cü nüsxəsinin məlumat lövhəsində asılması və asılmamasının səbəblərinin araşdırılması aidiyyəti üzrə müvafiq dairə seçki komissiyasına həvalə edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 106.11-ci maddəsinə əsasən məntəqə seçki komissiyasının protokolunun 3-cü nüsxəsi protokol tərtib edildikdən sonra məlumat lövhəsində asılır və 5 gün saxlanılır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Fətəliyev Məmmədsər Akif oğlunun 26 dekabr 2009-cu il tarixli 138 saylı müraciəti təmin edilərək, müvafiq protokolun 3-cü nüsxəsinin məlumat lövhəsində asılmasının təmin edilməsi və asılmamasının səbəblərinin araşdırılması aidiyyəti üzrə 77 saylı Astara seçki dairəsinin dairə seçki komissiyasına həvalə edilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Almas Qəhramanlı

Oktay Hümbətli